# Azərbaycan möhtəşəm zəfəri ilə regionda yeni reallıq yaradıb

*Bu gün bizim bölgəmizdə yeni vəziyyət yaranmışdır, yeni reallıq yaradılmışdır. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixdə qaldı, artıq həll edildi, bitdi. İndi gələcəyə baxmalıyıq və bölgəmizdə əməkdaşlıq haqqında düşünməliyik.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



***Azərbaycan Ordusunun ötən il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı 44 gün davam etdi, müharibə ölkəmizin tam qələbəsi və düşmənin kapitulyasiyası ilə nəticələndi. Bununla da Azərbaycan tapdaq altındakı torpaqlarımızı yağılardan təmizlədi. Müzəffər ordumuzun hər bir əsgəri, hər bir zabiti müharibədə qəhrəmanlıqla döyüşdü, işğalçının torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərdi, yaralandı, öz həyatını risk altına atdı, lakin məqsədi uğrunda inadından dönmədi, əzmlə, cəsarətlə zəfər yürüşünü son nəticəyə qədər davam etdirdi.***

Prezident İlham Əliyev oktyabrın 4-də Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərkən bu barədə deyib: “İkinci Qarabağ müharibəsindəki Qələbəmiz tarixi qələbədir. Buna bənzər Qələbə xalqımızın çoxəsrlik tarixində olmamışdır. Bütün xalq bu Qələbəni əldə etmək üçün birləşdi, Ordumuzun arxasında durdu və Ordumuz Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Bir daha demək istəyirəm ki, qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq”.

Dövlətimizin başçısı vurğulayıb ki, Vətən müharibəsində qazanılan parlaq qələbəmizlə həm beynəlxalq hüquq, həm də tarixi və insani ədalət bərpa olundu. Ona görə ki, düşməndən təmizlənən ərazilərdəki dağıntılara nəzər salmaqla, vəhşilikləri gözdən keçirməklə bu vandallıqları törədənlərə insan kimi yanaşmaq mümkün deyil. Bu cür faşist əməllərinin törədilməsi, əslində, işğalçının xalqımıza bəslədiyi nifrət hissindən irəli gəlib. Halbuki tarixdən bəllidir ki, Azərbaycan xalqı ermənilərə bir zamanlar qucaq açıb, misilsiz yaxşılıqlar edib: “Vaxtilə çar Rusiyası tərəfindən İrandan köçürülmüş ermənilərə burada yer verib. Düzdür, Cəbrayıl rayonunda ermənilər yaşamayıb, heç bir faiz də erməni əhalisi olmayıb. Mən arayışa baxdım, işğaldan əvvəl Cəbrayılda cəmi 10 erməni yaşayırdı. Ancaq Qarabağın digər yerlərində Azərbaycan xalqı onlara yer verdi. Sənə çörək verənə qarşı belə nankorluq, belə qəddarlıq, bu qədər vəhşilik hesab edirəm ki, dünya tarixində misli-bərabəri olmayan barbarlıq və vandallıqdır. Bu gün Ermənistanın havadarları, bax, bunu görməlidirlər. Görmək istəməsələr də, görməlidirlər və görəcəklər. Bütün dünya görür...”.

Əlbəttə, heç kəsə sirr deyil ki, düşmən 30 il ərzində bu cür xislətinə xas vəhşiliyi beynəlxalq təşkilatların, nüfuzlu dövlətlərin susqunluğundan, biganə münasibətindən, eyni zamanda, havadarlarının dəstəyindən istifadə edərək, törədib. Şübhəsiz ki, artıq hazırda belə qəddarlıqdan, barbarlıqdan bütün dünya xəbər tutub. Elə məhz bu fakta əsaslanıb dövlətimizin başçısının vurğuladığı kimi, deyə bilərik ki, Azərbaycan 44 günlük müharibədə özünü müdafiə etməklə, ərazisinin bərpasına nail olmaqla, həm də erməni faşizminin belini qırıb.

Ermənistan İkinci Qarabağ savaşındakı acı məğlubiyyəti ilə Azərbaycanın gücünü, birliyini, ləyaqətini, özünün isə iç üzünü-müharibə cinayətlərini, illərlə xalqının beyninə yeritdiyi “məğlubedilməz, döyüşkən ölkə” mifinin uydurma olmasını bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərkən bu barədə deyib: “Daha heç kim dünyada “müzəffər erməni əsgəri” haqqında bir söz demir. Çünki on min fərarisi olan orduda hansı şücaətdən, hansı qəhrəmanlıqdan söhbət gedə bilər? Heç kim “yenilməz Ermənistan ordusu” haqqında danışmır. Ermənistan ordusu yoxdur. Biz onu məhv etmişik, dibdən-kökdən məhv etmişik. Onların otuz il ərzində yığdıqları bütün texnikanı darmadağın etmişik. Onun bir hissəsi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Canlı qüvvəsini məhv etmişik. Bunu Azərbaycan xalqı edib və öz üstünlüyünü göstərib”.

***(ardı 6-cı səhifədə)***

# Azərbaycan möhtəşəm zəfəri ilə regionda yeni reallıq yaradıb




*(əvvəli 1-ci səhifədə)*

Beləliklə, İkinci Qarabağ müharibəsində Azərbaycan tarixi zəfərə nail olmaqla, haqqı, ədaləti, ərazi bütövlüyümüzü bərpa etməklə bölgədə yeni reallıqlar yaratdı. Başqa sözlə, xalqımızın parlaq, möhtəşəm qələbə qazanması ölkəmizin siyasi nüfuzunun, iqtisadi-hərbi qüdrətinin təsdiqinə çevrildi, eyni zamanda, regionumuzda tamamilə yeni geosiyasi və geoiqtisadi reallıqlar yaranmasını şərtləndirdi. Bununla da Azərbaycan dünyada öz sözü, mövqeyi, müstəqil xarici siyasəti olan ölkə imicini daha da möhkəmləndirdi. Eyni zamanda, Vətən müharibəsində Azərbaycanın ədalətli mövqeyinin dost və qardaş ölkələr tərəfindən müdafiə edilməsi, siyasi və mənəvi dəstək göstərilməsi ölkəmizin yeni güc mərkəzləri və yeni ittifaqlara qoşulması zərurətini meydana çıxardı. Şübhəsiz ki, bu reallıq təhlükəsizlik və tərəfdaşlıq müstəvisində maraqların koordinasiya edilməsi və uzlaşdırılmasından irəli gəldi. Azərbaycan, Türkiyə və Pakistan parlamentləri arasında imzalanan Bakı Bəyannaməsi də, məhz bu istiqamətdə atılan mühüm addım kimi tarixi hadisəyə çevrildi.

Bugünkü gerçəkliklər qalib ölkəmizin sözünün daha kəsərli olmasını, dost ölkələrin sayının günbəgün artmasını və beynəlxalq hüququn da onun yanında olmasını reallaşdırır, respublikamızı regionda sülhün, təhlükəsizliyin, açıq, konstruktiv, bərabərhüquqlu əməkdaşlığın, sözün əsl mənasında, qarantı kimi çıxış edən dövlət kimi tanıdır.

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın yaratdığı yeni reallıqlar barədə Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşündə də ətraflı bəhs edib: “Hazırda regionda real praktiki əməkdaşlıq çərçivələri müəyyən olunur. Türkiyə-Rusiya əməkdaşlığı regionumuzun sabitliyinin təminatçısıdır. Bu yaxınlarda Türkiyə və Rusiya prezidentlərinin görüşü zamanı Ermənistan-Azərbaycan münasibətləri müzakirə olundu və həm Türkiyə, həm Rusiya ilə biz daim təmasdayıq. Mən Prezident olaraq daim təmasdayam. Bölgədə bu gün sabitliyin bərqərar olmasında Türkiyə və Rusiyanın rolu çox böyükdür. Yəni, bizə bu format kifayətdir. Ermənistan da bu formata qoşulacaq. Çünki başqa yolu yoxdur. İndi reallıq bundan ibarətdir…”.

Prezident İlham Əliyev təkcə Ermənistana deyil, həm də onun havadarlarına 44 günlük tarixi dərsdən nəticə çıxartmağın, yeni geosiyasi reallığın şərtlərini qəbul etməklə işğalçının yaşadığı dərin siyasi, sosial-iqtisadi böhrandan xilas etməyin mümkünlüyünü dəfələrlə xatırladıb. Dövlətimizin başçısı, həmçinin müxtəlif vaxtlardakı bəyanatları ilə Qarabağ münaqişəsinin artıq bitdiyini bildirib, “Şuşa Bəyannaməsi”nə və “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” 2021-ci il 7 iyul tarixli Fərmana əsaslanan mövqeyini vurğulayıb, Zəngəzur dəhlizinin siyasi-iqtisadi əhəmiyyətini diqqətə çatdırıb.

Yeri gəlmişkən, Zəngəzur dəhlizinin açılması Cənubi Qafqazdan keçən marşrutlar sisteminin fəaliyyətini daha da canlandıracaq. Dəhliz, həmçinin Azərbaycan və İran Culfası arasında dəmiryol xəttinin açılışına və İranın dəmir yollarına çıxış əldə etməyə imkan verəcək. Bununla bərabər, Zəngəzur dəhlizi təkcə dəmir yolları deyil, həm də avtomobil yolları sisteminə malik olacaq. Deməli, bu dəhlizin yaradılması həm də avtomobil əlaqəsinin açılmasına imkan yaradacaq.

Hazırda Türkiyədən yüklər Azərbaycana Gürcüstan və İran vasitəsilə tranzit yolu ilə çatdırılır. Bu marşrutun yaradılması Türkiyədən Azərbaycana və əks istiqamətdə malların birbaşa tədarükünü asanlaşdıracaq. Beləliklə, daha bir kommunikasiya xətti türk dünyası coğrafiyasında, eləcə də Asiya və Avropa arasında əlaqələrin daha sürətli və asan olmasına şərait yaradacaq.

Göründüyü kimi, artıq bölgədə yeni nəqliyyat və infrastruktur xəritəsi formalaşmasına başlanılıb. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən indiyədək Asiya və Avropanı birləşdirən yüksək əhəmiyyətli nəqliyyat dəhlizləri yaradıb. Məhz ölkəmizin təşəbbüsü ilə reallaşdırılan Şimal-Cənub, Şərq-Qərb və Cənub-Şimal nəqliyyat dəhlizləri qitələrarası daşınmaların həyata keçirilməsini gerçəkləşdirib. Bu nəqliyyat dəhlizləri istifadəyə verildiyi vaxtdan tarixi İpək yolunun bərpasında mühüm önəm daşıyıb.

Bütün bunlar deməyə əsas verir ki, Zəngəzur dəhlizinin reallaşması və ölkəmizin təqdim etdiyi digər tranzit nəqliyyat dəhlizləri dünyanın nəqliyyat xəritəsini yenidən formalaşdıracaq. Başqa sözlə, yeni yaranacaq nəqliyyat infrastrukturu beynəlxalq status qazanmaqla Asiya və Sakit okean hövzəsi ölkələrinin də istifadə edə biləcəyi marşruta çevriləcək.

Ermənistan isə Zəngəzur dəhlizinin qeyd edilən üstünlüklərindən yararlanarsa, başqa sözlə, regional əməkdaşlığa önəm verərsə, sosial-iqtisadi sahələrdə müsbət göstəricilərlə qarşılaşa bilər. İlk növbədə, iqtisadi blokadadan çıxmaq və iqtisadi inkişafını gerçəkləşdirmək imkanları əldə edər.

Əks halda, təcavüzkar siyasətindən əl çəkməsə, bu ölkədə işsizlik səviyyəsi daha da artacaq, mühacirət və yoxsulluqla müşayiət olunan oxşar iqtisadi vəziyyət getdikcə ağırlaşacaq, düşmən respublikada xaos və özbaşınalıq daha da dərinləşəcək.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 10 oktyabr.- S.1;6.